# Payız misraları




Ömrün payızını yaşayanlar çox zaman elə payız ovqatlı olurlar. Mən payızla bağlı şeirləri sevə-sevə oxuyuram. Belə şeirləri ötən illərdə daha çox ustad şairimiz Musa Yaqub yazırdı və oxucuya çatan kimi əzbərlənirdi, nəğməyə çevrilirdi. Çünki o şeirlər elə payız kimi adamın içindən keçib gedirdi... Allah Musa müəllimə çansağlığı versin!

*Payızın bu acı küləklərində*
*düşmək istəməyən, ey sarı yarpaq!.,*
*mən səni həmişə özüm bilmişəm...*
*Köçən durnaların qəmli səsiylə,*
*bir də, göz yaşıyla islanmış torpaq*
*mən səni həmişə özüm bilmişəm...*

Bu misralar isə istedadlı şairimiz Tofiq Nurəlinindi. Ötən payızın yarpaq tökümü başladığı günlərdə oxumuşam və elə ürəyimə yatıb ki... İstədim Tofiq müəllimin payız ovqatını Sizlər də yaşayasız. Elə ilıq, ürək sızıldadandı. Adam oxuyandan sonra elə darıxır ki, deyirsən yəqin bir də yaz gəlməyəcək, ağaclar yarpaq paltarını geyinməyəcək, quşlar yuva bağlamayacaq, uzaqlara gedən ağ gəmilər dönməyəcək, həsrətlilər istəklilərinə qovuşmayacaq...

*İlahi.., ürəyim payız istəyir...*
*Solğun yarpaqların ucundakı nəm...*
*...Niyə yazı-yazıq baxırsan, gülüm..,*
*Bu payız deyil ki.., bu elə mənəm...*

Müəllif bu cür şeirləri ilə bizə belə kövrək duyğuları yaşadır...

**Səməd Məlikzadə**

Kaspi.- 2020.- 25 yanvar.- S.22